# Heydər Əliyev ideyaları dövlətimizin uğurlarını təmin edir

**"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır.Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".**

***Ümummilli Lider Heydər Əliyev***

Bütün ömrünü xalqına həsr etməklə, onun səsinin dünyanın ən yüksək tribunalardan gəlməsinə nail olmaqla əsaslı bir məktəbin təməlini qoyan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatından 17 il ötür. Tarixə nəzər saldıqda məlum olur ki, hər bir xalqın müqəddəratının həll olunduğu müxtəlif məqamlarda bütün varlığı ilə millətinə bağlı olan, müdrik və cəsarətli rəhbərə ehtiyac duyulur. Azərbaycan xalqının tarixində belə şəxsiyyətlərdən danışarkən Heydər Əliyevin adını xüsusi çəkmək lazımdır. Gənc yaşlarından hərtərəfli bilik, xüsusi istedad, müdriklik və cəsarət tələb edən son dərəcə məsuliyyətli vəzifələrdə çalışan ulu öndər, fəaliyyətinin ilkin mərhələsindən üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək işininin öhdəsindən yüksək məharətlə gəlməklə bərabər, Azərbaycançılıq məfkurəsinin formalşması üçün bütün zəruri addımları atırdı.

Ulu Öndərin qorxmazlığı, sözünü məqamında deməyi bacarması, həqiqətin gözünün içinə dik baxması, milli ideallar uğrunda mübarizəsi kimi xarakterik xüsusiyyətləri gənclər üçün ən gözəl və ən aydın örnəkdir. Azərbaycançılıq məfkurəsinin müəllifi, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Azərbaycanı bütün dünyaya tanıdıb, ölkəmizə əbədi müstəqillik bəxş edib, Vətənimizi təhlükələrdən xilas edib. Vətənə, xalqa, dövlətə, torpağa sonsuz məhəbbət və sədaqət bizim yaddaşlarımıza məhz onun ideyaları ilə aşılanır. Ən çətin məqamlarda belə torpağa və dövlətə sədaqət prinsipi ulu öndər Heydər Əliyevin biz gənclərə ən ali mirasıdır. Ən əsası isə Ümummilli Liderimiz milli qürurumuzu özümüzə qaytarıb, bizə Azərbaycanı məhz onun kimi sevməyi öyrədib. Heydər Əliyev xalqımız qarşısında tarixi xidmətləri ilə insanlığın zirvəsinə ucalıb, dünyanın ən nəhəng siyasətçiləri sırasında dayanan böyük azərbaycanlı, Ümummilli Lider kimi əbədilik qazanıb.

Azərbaycan Respublikasının dinamik inkişaf strategiyasının əsasını qoymuş dahi şəxsiyyət, görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişafı və tərəqqisi yolunda, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Bu irsi öyrənmək və təbliğ etmək bizim hər birimizin məsul və şərəfli borcumuzdur.

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Lakin XX əsrin sonunda başlamış Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzü ilə qarşılaşdı və nəticədə torpaqlarımız işğal altına düşdü. Həmin dövrdə ölkə çətin vəziyyətdə idi, ordu formalaşmamışdı, hansı istiqamətdə addımlar atılacağı bilinmirdi. Ölkədə sabitlik yox idi, xaos, hakimiyyətsizlik hökm sürürdü. Bu baxımdan, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və milli maraqların qorunmasına əsaslanan xarici siyasət tələb edirdi.Yalnız 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı.




Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başlanmışdır. Bu dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşlarımızın əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına istintaq edilmiş, təqsirkar şəxslər layiqli cəzalarını almışlar. Bu dövrdə Azərbaycanda 1994-cü ilin oktyabrın və 1995-ci ilin mart dövlət və hərbi çevrilişlərinə cəhdlərin qarşısı alınmışdır. Həmin hadisələrlə bağlı cinayət işlərinin istintaqının aparılmasında prokurorluğun bir qrup əməkdaşı xüsusilə fərqlənmişdir.

Azərbaycan Respublikasının müstəqil, demokratik, hüquqi, dünyəvi, qanunun aliliyinə və vətəndaş cəmiyyətinə əsaslanan dövlətə çevirmək məqsədilə milli dövlət quruculuğu prosesinin və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi üçün ilkin mərhələdə müvafiq hazırlıq işi aparılaraq şərait yaradılmalı idi. 1995-ci ilin ortalarına kimi əsas məqsəd respublikamızda dövlətçiliyin qorunub saxlanılmasından, ictimai-siyasi sabitliyin bərqərar olmasından ibarət olmuşdur. Bu dövrdə respublikamızda güclü mərkəzi hakimiyyət qurulmuş, bunun üçün müvafiq qanunlar qəbul edilmiş, fərmanlar imzalanmış, hüquqi, ictimai-siyasi, məhkəmə-hüquq və sosial-iqtisadi sahələrdə islahatların aparılması məqsədilə hazırlıq işləri görülərək dövlət quruculuğu prosesinin sürətləndirilməsi üçün zəmin yaradılmışdır.

"Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır...", - bu sözlər Ulu Öndərimizin 26 aprel 2000-ci il tarixdə Azərbaycan Respublikasının prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşü zamanı söylədiyi proqram xarakterli nitqindən götürülmüşdür.

Müstəqillik dövründə Azərbaycan Respublikasının Prokurorluğu ölkə rəhbəri ulu öndər Heydər Əliyevin daimi diqqət mərkəzində olmuşdur. Prokurorluğun fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar, o cümlədən "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" qanunlar dövlət başçısının təşəbbüsü ilə qəbul olunmuş və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında" Əsasnamə onun sərəncamı ilə təsdiq edilmişdir. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 8 oktyabr tarixli sərəncam hörmətli Prezidentimizin prokurorluğa və prokurorluq işçilərinə göstərdiyi daimi qayğının parlaq bir təzahürüdür.

Həmçinin vurğulamaq yerinə düşər ki, milli həmrəyliyin və birliyin ideoloji əsası olan azərbaycançılıq ideyası ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Yalnız, Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etdi və məhz Ümummilli Lider ilk dəfə olaraq, xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində sistemli iş aparmağa başladı. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, o cümlədən beynəlxalq əlaqələrin qurulmasında və genişləndirilməsində diasporun əhəmiyyətini dəyərləndirən zəngin təcrübəyə malik, dövlət xadimi Heydər Əliyevin ABŞ, Almaniya, Fransa, Türkiyə, Böyük Britaniya, Rusiya, Çin və digər ölkələrə işgüzar səfərlərində, oradakı həmvətənlərimizlə görüşlərdə səsləndirdiyi fikirlər həm ölkə vətəndaşları, həm də Azərbaycan diasporu üçün səmərəli fəaliyyət proqramı kimi bu gün də mühüm əhəmiyyət kəsb edir.

Ümummilli Liderin builki anım günü onun ən ümdə arzusunun həyata keçməsi ilə əlamətdar oldu. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən dahi Heydər Əliyevin bu arzusunu bu gün onun siyasətinin layiqli davamçısı, Azərbaycan xalqının mərd oğlu İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək yerinə yetirdi. Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır!" deyərək bu məsələnin nidasını qoydu və Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Beləliklə də Prezident İlham Əliyev "ata vəsiyyətini" yerinə yetirərək bütün Azərbaycan xalqını xoşbəxt etdi.

***Kamil ƏKBƏROV***
***Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun Dövlət İttihamının Müdafiəsi üzrə şöbə prokuroru, ədliyyə polkovnik-leytenantı***